Avropa İttifaqi tərəfindən birgə maliyyələşdirilir

AVROPA İTTİFAQI

COUNCIL OF EUROPE

CONSEIL DE L'EUROPE

Avropa Şurası tərəfindən birgə maliyyələşdirilir və icra edilir

# Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq

## Layihə: Azərbaycanda bərabərliyin təşviqi

Bu layihə bərabərliyin təşviqi və ayrı-seçkiliyin qarşısının alınması sahəsində Avropa Şurasının və beynəlxalq standartların təşviqini davam etdirməyə, o cümlədən Azərbaycanda bərabərliyin təşviqi və ayrı-seçkiliyin qarşısının alınması işinin genişləndirilməsi və gücləndirilməsi üçün ölkədaxili hüquqi çərçivələrin beynəlxalq standartlara uyğunlaşdırılması və həmin standartların tətbiq edilməsi üçün dövlət qurumlarının, hüquqşünasların və hüquq-mühafizə orqanlarının əməkdaşlarının, vətəndaş cəmiyyətinin və sairənin potensialını gücləndirməyə yönəlib.

Bu layihə Avropa İttifaqı və Avropa Şurasının "Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq" birgə proqramının üçüncü mərhələsi çərçivəsində həyata keçirilir. O, bərabərliyin təşviqi və ayrı-seçkiliyin qarşısının alınması sahəsində Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq proqramının əvvəlki mərhələlərinin nəticələrinə əsaslanır (I mərhələ: 2015-2018 və II mərhələ: 2019-2023).

### Layihənin məqsədləri nələrdir?

- Azərbaycanda bərabərliyin təşviqi və ayrı-seçkiliyin qarşısının alınması üzrə Avropa standartlarının tətbiqini genişləndirmək və gücləndirmək.

### Layihədən kimlər yararlanacaq?

- Ədliyyə Nazirliyi;
- Təhsil Nazirliyi;
- Daxili İşlər Nazirliyi;
- Ombudsman Aparatı;
- Vətəndaş cəmiyyəti;
- Geniş ictimaiyyət.

### Layihə necə işləyəcək?

- Siyasət/qanunvericilik, potensialın və məlumatlılığın artırılması üzrə uzlaşdırılmış tədbirlərinin kombinasiyası vasitəsilə.

### Nələrə nail olacağımızı gözləyirik?

- İnsan hüquq və azadlıqlarının səmərəli müdafiəsi üçün Ombudsman Aparatı əməkdaşlarının potensialının artırılması;
- Ombudsman və vətəndaş cəmiyyəti arasında dialoqun genişləndirilməsi, habelə bərabərliyin və daha çox müxtəlifliyin olduğu cəmiyyətin təşviqi üzrə VCT-lərin işləməsi potensialının artırılması;
- Gənclər və geniş ictimaiyyət arasında ayrı-seçkiliyin yolverilməzliyi və dözümlülüyə dair standartları haqqında məlumatlılıq səviyyəsinin artırılması.

### Layihənin xərcləri nə qədərdir?

### Layihənin müddəti nə qədərdir?

- Layihənin büdcəsi 220.000 avrodur.
- Proqramın ümumi büdcəsi 19,3 milyon avro təşkil edir (80% Avropa İttifaqı və 20% Avropa Şurası tərəfindən maliyyələşdirilir).

## Daha çox məlumatı necə əldə etmək olar?

- Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq proqramının veb-saytı: http://partnership-governance-eu.coe.int/
  e-mail: dpc_pgg@coe.int
- Avropa Şurasının Bakı ofisinin veb-səhifəsi: https://www.coe.int/baku;
  e-mail ünvanı: fieldbaku@coe.int

- Layihənin icra müddəti 1 mart 2023-cü ildən 28 fevral 2026-cı ilədəkdir.

*“Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq” (PGG) Şərq Tərəfdaşlığı regionunda yaxşı idarəetmənin gücləndirilməsi üçün Avropa İttifaqı və Avropa Şurasının birgə təşəbbüsüdür.*

*PGG Şərq Tərəfdaşlığı ölkələrinin qanunvericilik və təcrübəsini insan hüquqları, qanunun aliliyi və demokratiya sahələrində Avropa standartlarına yaxınlaşdırmaq üçün onlara fərdişləşdirilmiş dəstək göstərir. O, xüsusilə Şərq Tərəfdaşlığı ölkələrinin ədalət mühakiməsini gücləndirmək, iqtisadi cinayətlərə qarşı mübarizə aparmaq, bərabərliyi təşviq etmək və ayrı-seçkiliyin qarşısını almaq, qadınların ədalət mühakiməsinə çıxışı imkanlarını artırmaq və qadınlara qarşı zorakılığa qarşı mübarizə aparmaq üçün həyata keçirilən ölkədaxili islahatları dəstəkləyir.*